# Ali Rəhbər Həzrət Zəhranın (s.ə) şəhadətinə həsr olunmuş matəm mərasimində iştirak etdi - 28 /Jan/ 2020

İslam İnqilabının Ali Rəhbəri, bir qrup hökumət rəsmisi və xalqın müxtəlif təbəqələrindən olan minlərlə insanın iştirakı ilə İmam Xomeyni (r.ə) adına hüseyniyədə Həzrət Fatimeyi-Zəhranın (s.ə) şəhadətinə həsr edilmiş matəm gecəsi keçirildi.

Mərasimdə çıxış edən Höccətül-İslam vəl-müslimin Rəfii Əhli-beyt (ə) hökumətinin yeddi əsasa: dözümlülük, ülfət, vüqar, sirdaşlıq, insanlarla gözəl davranmaq, səy və çalışmaq prinsiplərinə əsaslandığını dedi və Həzrət Siddiqeyi-Kübranın sevgi və məhbbətinin cilvələrindən danışdı: "Həzrət Fatimeyi-Zəhra (s.ə) ilahi razılığın cilvə və təzahürüdür və o böyük xanımın razılığı Allah-taalanın razılığına səbəb olur".

Höccətül-İslam vəl-müslimin Rəfii habelə Quranın ən mühüm mesajlarından birinin Allaha ümid və məyusluqdan qorunmaq olduğunu dedi: "Ümid İslam cəmiyyətinin hərəkət istiqamətini göstərən kompasdır. İnsanlara ümidsizlik aşılamaq şeytan işidir".

Mərasimdə cənab Meysəm Mütii Həzrət Fatimənin (s.ə) başına gələn müsibətlərdən danışıb növhə oxudu.

**Materialdan istifadə edərkən WWW.LEADER.İRsaytına istinad zəruridir**